Азәрбајҹан партија тәшкилаты республикамызын фәһлә синфинин, Бакы пролетариатынын шанлы ингилаби вә әмәк ән'әнәләринин давам етдирилмәсинә вә даһа да зәнкинләшдирилмәсинә бөјүк диггәт јетирир. Мүбалиғәсиз демәк олар ки, Азәрбајҹан КП МК-нын, онун бүросунун сон 10—12 ил әрзиндә көрдүјү бүтүн тәдбирләрдә бејнәлмилəл тәрбијә мәсәләләри мүһүм јер тутмушдур.

Республика әһалисинин бејнәлмилəл тәрбијәсини даһа да јахшылашдырмаг һаггында Азәрбајҹан КП МК-нын јахынларда гәбул ет-



**Н. Ә. ИМАНГУЛИЈЕВ,**

«Бакы» вә «Баку» ахшам гәзетләринин редактору

дији гәрар да мәһз һәмин истигамәтин вә диггәтин јени парлаг ифадәсидир.

Азәрбајҹан журналистләринин бу күнкү али мәҹлисиндә гејд етмәк хүсуси илә әһәмијјәтлидир ки, һәмин гәрарда мәтбуат ишчиләри гаршысында да чох мүһүм вәзифәләр гојулмушдур. Бу вәзифәләрин мүвәффәгијјәтлә јеринә јетирилмәси халглар достлуғунун мөһкәмләндирилмәсиндә, әмәкдашлығымызын, гаршылыглы јардымымызын бөјүк бәһрәләр вермәсиндә мәтбуатын ролунун даһа да артмасына көмәк едәҹәкдир.

Өлкәмизин, халгымызын һәјатында әламәтдар һадисәләри, ел бајрамларыны мүтәшәккил һазырлыгла гаршыламаг, зәһмәткешләрин гүввә вә сә'јләрини бајрам шәрәфинә јарышда даһа јүксәк нәтиҹәләр газанмаға сәфәрбәр етмәк мәтбуатымызын көзәл ән'әнәләриндән биридир. «Бакы» вә

«Баку» гәзетләринин әмәкдашлары, фәһлә мүхбирләри вә фәал мүәллифләри вар гүввә илә чалышырлар ки, бу ән'әнәјә садиг галсынлар.

Халглар достлуғу, бејнәлмиләлчилик тәрбијәси вә мә'нәви тәрбијә, совет адамынын кетдикчә даһа чох камилләшмәси мөвзулары «Бакы» вә «Баку» гәзетләриндә мүнтәзәм ишыгландырылыр.

ССРИ-нин тәшкил едилмәсинин 60 иллик јубилеји шәрәфинә сосиализм јарышынын ишыгландырылмасына да бөјүк диггәт јетиририк. Гәзетләримизин һәр нөмрәсиндә зәрбәчи әмәк нөвбәләриндән хош хәбәрләр, репортажлар дәрч олунур. Јубилеј илинин габагчылларына һәср олунан очеркләр, јазычы гејдләри дә дәрч етмәји нәзәрдә тутмушуг. Өлкәнин дикәр пајтахт шәһәрләри илә Бакынын әлагәләри һаггында да јазылар дәрч едирик. Москва метро иншаатчыларынын өз бакылы һәмкарларына, бакылыларын исә Дашкәндин метро иншаатчыларына көмәји барәдә дәфәләрлә чыхыш етмишик.

Бакы мәишәт кондинсионери заводунун тикинтисинә, ики мүәссисәдә нәһәнк ЕЛОУ-АВТ нефтајырма гурғуларынын тикинтисинә бүтүн өлкәнин нечә көмәк етдији ахшам гәзетләриндә кениш ишыгландырылмышдыр. Ејни заманда биз әсрин нәһәнк тикинтиси олан БАМ-да, Атоммашда, КамАЗ-да вә башга зәрбәчи објектләрдә, гејри-гараторпаг зонанын дирчәлдилмәсиндә, Арханкелск вилајәтинә, илк космонавтын вәтәни Гагарин шәһәринә һамилик көмәјиндә бакылыларын јахындан иштиракы мөвзусуну да даим диггәт мәркәзиндә сахлајырыг. Бакы нефтчиләри вә машынгајыранларынын Сибир нефтчиләринә көмәји, БАМ-да Азәрбајчан иншаатчыларынын әлләри илә јарадылан Улкан стансијасынын тикинтиси, орда һүнәр көстәрән һәмјерлиләримизин әмәји, тәләбә иншаат дәстәләринин Арханкелскдә вә Смоленскдә, Түмендә вә «Атоммаш»дакы ишләри барәдә гәзетләримиздә дәфәләрлә марағлы јазылар дәрч олунмушдур.

Гардаш Загафгазија республикалары пајтахтларынын достлуғу да шанлы ән'әнәләримиздән бири-дир. Бакы, Тбилиси вә Јереван шәһәрләри иллардән бәридир ки, бир-бири илә јарышыр, достчасына, гардашчасына тәчрүбә мүбадиләси едирләр. Бу достлуг үч пајтахтын ахшам гәзетләринин коллективләри үчүн дә чох сәчијјәвидир. Биз тез-тез көрүшүр, шәһәрләримизин зәһмәткешләринин наилијјәтләри һаггында материаллар мүбадиләси едирик. Өтән ил Мәтбуат күнү мүнасибәтилә «Бакы», «Баку», «Тбилиси», «Вечерни Тбилиси» вә «Јерекојан Јереван» гәзетләринин биркә нөмрәси бурахылмышдыр.

Бакынын бир сыра рајонлары Москванын, Ленинградын вә Дашкәндин, Тбилисинин вә Јереванын, Днепетровскын, Таганрог шәһәринин вә башга шәһәрләрин ајры-ајры рајонлары илә достлуг әлагәләри сахлајырлар. Ејни профилли мүәссисәләрин коллективләри арасында достлуг јарышы көзәл ән'әнәјә чеврилмишдир. «Бакы» вә «Баку» гәзетләри бу јарышларын кедишини изләјир, Бакыја кәлән нүмајәндә һеј'әтләринин үзвләри илә мүсаһибәләр тәшкил едир, онларын чыхышларыны дәрч едир.

Биз Бакы мүтәхәссисләринин өлкә вә дүнја мијгасына чыхмалары, бир сыра республикаларда вә дөвләтләрдә, Асијанын, Африканын, Латын Американын бир сыра өлкәләриндә мүвәффәгијјәтлә чалышараг Азәрбајчанын шөһрәтини артырмалары барәдә дә мүнтәзәм сурәтдә јазылар веририк. Бу јазылар «Бакыдан узагларда», «Биз Азәрбајчанданыг», «Бакылынын бејнәлмиләл борчу», «Бакылылар бүтүн меридианларда» рубрикалары алтында дәрч олунур.

Һ. Ә. Әлијев јолдашын «Литературнаја газета»нын мүхбири илә олан вә кениш әкс-сәда доғуран актуал мүсаһибәси мүәјјән һәјати мәсәләләрин ишыгландырылмасы

үчүн демәк олар ки, редаксија коллективләринин иш програмыдыр. Һөјатымызда һамыны дүшүндүрән суаллара ичтимаи фикрин ифадәси мөвгејиндән чаваб вермәк чох бөјүк һәјат тәчрүбәси, мүдриклик вә марксист-ленинчи дүнјагөрүшүнә әсасланан дәрин методоложи дүрүстлүк тәләб едир. Һ. Ә. Әлијев јолдаш өзүнүн бу мүсаһибәсиндә вә бүтүн дикәр чыхышларында һәмин мәсәләләри, һәгигәти ачыг шәкилдә шәрһ едир.

Биз мәтбуат ишчиләри дә бу чәһәти өјрәнмәли, тәнгид һәдәфини дүрүст ахтармалы вә сәрраст вурмалыјыг.

Чыхышымын ахырында бә'зи мүлаһизәләрими гејд етмәк истәрдим.

Бакыдан, республикамыздан чох өлкәләрә, гардашлашмыш шәһәрләрә нүмајәндә һеј'әтләри кедир. Тәәссүф ки, онларын тәркибиндә журналистләри аз көрүрүк.

Индики дөврдә гәзет вә журналларын охучулара вахтлы-вахтында, бачардыгча тез чатдырылмасынын чох бөјүк әһәмијјәти вардыр. Лакин сәһәр гәзетләри бә'зән сатыша күнорта, ахшам гәзетләри исә ертәси күн кәлир. Коммунист нәшријјаты мәтбәәсиндә ихтисаслы мүрәттиб, стереотипчи, метранпаж, стенографист кадрлары чатышмыр, чидди еһтијач һисс олунур. Бу вәзијјәт редаксијаларда да ишин аһәнкдарлыгынын позулмасына сәбәб олур.

Шәһәримиздәки күчәләрдән биринә бир әсрдән чох тарихи олан Азәрбајчан мәтбуаты адынын верилмәси чох јахшы оларды.

Республика журналистләринин бу күнкү гурултајында мән «Бакы» вә «Баку» гәзетләри редаксијасы журналистләри адындан Азәрбајчан КП МК-ны вә Бакы Шәһәр Партија Комитәсини әмин едирәм ки, коллективимиз өз фәалијјәтини даһа да јахшылашдыраҹаг, Сов.ИКП XXVI гурултајы вә Азәрбајчан КП XXX гурултајынын вә Бакы шәһәр партија тәшкилаты 44-чү конфрансынын гәрарларыны јеринә јетирмәк ишиндә органы олдуғу тәшкилата даһа јахындан көмәк едәчәкдир.